*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2009-cu il 22 yanvar tarixli 2/9-1 saylı Qərarı ilə təsdiq edilmişdir.*

**Referendumda səsvermənin nəticələri haqqında məntəqə seçki (referendum) komissiyasının yekun protokolunun doldurulması qaydasına dair**

# İ Z A H

Ümumxalq səsverməsində (referendumda) səsvermənin nəticələri haqqında məntəqə seçki (referendum) komissiyasının (bundan sonra – məntəqə seçki komissiyası) yekun protokolunun (bundan sonra – məntəqə seçki komissiyasının protokolu) (bu İzaha 1 saylı əlavə) doldurulması qaydası Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 106-cı və 136-cı maddələrinə, habelə bu İzaha uyğun olaraq müəyyənləşdirilir.

Məntəqə seçki komissiyasının protokolu yalnız həmin komissiyanın həlledici səs hüquqlu üzvləri tərəfindən tərtib edilməlidir. Protokolun tərtib edilməsini Seçki Məcəlləsinin 40.2-ci və 40.4-cü maddələrində göstərilən şəxslər (seçki komissiyalarının üzvləri, qeydə alınmış referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, habelə müşahidəçi statusunu almış Azərbaycan Respublikasının vətəndaşları və beynəlxalq müşahidəçilər) müşahidə edə bilərlər.

***Qeyd:*** *protokol tərtib edilərkən hər bir bəndin məlumatı ayrı-ayrılıqda göstərilir, saylar sözlə və rəqəmlə yazılır. Protokolun karandaşla yazılmasına və onda hər hansı bir düzəliş edilməsinə icazə verilmir. Rəsmi protokolda düzəliş edilməsinə icazə verilmədiyinə görə, əvvəlcə onun mütləq* ***q a r a l a m a*** *nüsxəsi tərtib edilməlidir. Protokolun 1–6-cı bəndlərindəki məlumatlar səsvermə qutuları açılmazdan əvvəl yazılır.*

Protokol aşağıdakı qaydada doldurulmalıdır:

***1-ci bənd*** **– məntəqə üzrə seçici siyahılarında olan seçicilərin ümumi sayı**

**(1=1a+1b)**

a) seçici siyahısındakı seçicilərin sayı;
b) əlavə seçici siyahısında olan seçicilərin sayı.

*1-ci bənddə məntəqə seçki komissiyasının seçici siyahısına daxil edilmiş seçicilərin sayı (1a) və səsvermə günü məntəqə seçki komissiyasının qərarı ilə səsvermə hüququ təmin edilmiş şəxslərin adlarının daxil olduğu əlavə seçici siyahısındakı seçicilərin sayı (1b) müvafiq təsdiqedici sənədlərə [daimi*

*(və ya müvəqqəti) və əlavə seçici siyahıları] əsasən qeyd olunur. Eyni zamanda 1a və 1b yarımbəndlərindəki rəqəmlərin cəmi 1-ci bənddə göstərilən sayı yaratmalı və müvafiq bərabərlik olmalıdır.*

***2-ci bənd* – qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin sayı**

*Daimi (və ya müvəqqəti) seçici siyahısına daxil edilmiş, lakin qanunla müəyyən edilmiş müddətdə qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin sayı bu bənddə qeyd olunur.*

***3-cü bənd*–məntəqə seçki komissiyasına dairə seçki komissiyasından verilmiş səsvermə bülletenlərinin sayı**

**(3=4+5+6)**

*3-cü béndə dairə seçki komissiyasından məntəqə seçki komissiyasına müvafiq akt tərtib edilməklə verilmiş səsvermə bülletenlərinin sayı daxil edilir. Bu rəqəmin daxil edilməsi üçün həmin akt əsas götürülməlidir.*

*Mötərizədə verilmiş hesablamada (3=4+5+6) göstərildiyi kimi, bu bəndin rəqəmi protokolun 4-cü (səsvermə bülleteni alan seçicilərin sayı), 5-ci (istifadə edilmədən ləğv olunmuş səsvermə bülletenlərinin sayı) və 6-cı (korlanmış səsvermə bülletenlərinin sayı) bəndlərinin rəqəmlərinin cəminə bərabər olmalıdır.*

***4-cü bənd* – səsvermə bülleteni alan seçicilərin sayı**

**(4=4a+4b+4c)**

a) səsvermə otağından kənarda;

b) səsvermə otağında – seçici siyahıları əsasında [daimi (və ya müvəqqəti) və əlavə seçici siyahılarında olan imzaların sayı];

c) səsvermə otağında – qeydiyyatdan çıxma vəsiqəsi ilə.

*Bu yarımbəndlərə seçki məntəqəsi üzrə səsvermə otağından kənarda (4a), səsvermə otağında seçici siyahıları əsasında (4b) və qeydiyyatdan çıxma vəsiqəsi ilə (4c) səsvermə bülleteni almış seçicilərin sayı daxil edilir. Həmin rəqəmlərin cəmi 4-cü bəndin rəqəmini verir və bu rəqəm müvafiq qrafaya yazılır.*

***5-ci bənd* – istifadə edilmədən ləğv olunmuş səsvermə bülletenlərinin sayı**

*İstifadə edilməmiş səsvermə bülletenləri səsvermə qutuları açılmazdan əvvəl səsvermə otağındakı müşahidəçilərin müşahidəsi ilə məntəqə seçki komissiyasının üzvləri tərəfindən sayılır və aşağı sağ küncü ləğvetmə xəttindən kəsilməklə ləğv edilir. Həmin səsvermə bülletenlərinin sayı elan edilir və yekun protokolunda qeyd olunur (ləğv edilmiş bülletenlər ayrıca*

*yığılıb bağlanır və istifadə edilməmiş bülletenlərin ləğv edilməsi haqqında akt tərtib edilir).*

***6-cı bənd*** **– korlanmış səsvermə bülletenlərinin sayı**

*Korlanmış səsvermə bülletenlərinin sayı bu béndə müvafiq akt əsasında daxil edilir (seçici hər hansı bir səbəbdən bülleteni korlaması barədə məntəqə seçki komissiyasına müraciət edərsə, komissiya üzvü korlanmış bülleteni yarı kəsməklə ləğv edir, ayrıca zərfə qoyur və bu barədə dərhal akt tərtib edilir).*

***7-ci bənd*** **– səsvermə qutularında olan səsvermə bülletenlərinin sayı *(müəyyənləşdirilmiş formada olmayan səsvermə bülletenləri* istisna ediləməklə)***

***(7=7a+7b); (7≤4)***

a) daşınan səsvermə qutusunda ***(7a≤4a)***;

b) daşınmaz səsvermə qutusunda ***(7b≤4b*+4c*)***.

*Daşınan və daşınmaz səsvermə qutularından çıxmış müəyyənləşdirilmiş formada olan səsvermə bülletenlərinin sayı qutuların açılma növbəliliyinə uyğun olaraq ayrı-ayrılıqda bu bəndin “a” və “b” yarımbəndlərinə daxil edilir. Bu rəqəmlərin cəmi 7-ci bənddəki qrafaya daxil edilməli və onların arasında müvafiq bərabərlik olmalıdır. Protokolun 7a yarımbəndindəki rəqəm protokolun 4a yarımbəndindəki rəqəmdən, 7b yarımbəndindəki rəqəm isə 4b və 4c yarımbəndlərdəki rəqəmlərin cəmindən az və ya onlara bərabər olmalıdır. Mötərizədə verilmiş kiçik bərabərlikdə* ***(7≤4)*** *göstərildiyi kimi, 7-ci bəndin rəqəmi protokolun 4-cü bəndindəki rəqəmdən az və ya ona bərabər olmalıdır.*

**Qeyd:** *müəyyənləşdirilmiş formada olan bülletenlər dedikdə, Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada hazırlanmış, nömrələnmiş yuxarı sol küncü kəsilmiş və sağ küncü möhürlənmiş səsvermə bülletenləri başa düşülür.*

***8-ci bənd*** **– ümumxalq səsverməsinə çıxarılmış referendum aktı layihəsi üzrə səslərin hesablanmasının nəticələri**

*Bu bənddə referenduma çıxarılmış hər bir məsələnin lehinə və əleyhinə verilmiş, habelə etibarsız hesab edilmiş səslərin sayı qeyd edilməlidir.*

Protokol tam doldurulub qurtardıqdan sonra doldurulma tarixi və vaxtı həmin protokolda qeyd edilir.

Səsvermənin nəticələri haqqında yekun protokolu məntəqə seçki komissiyasının həlledici səs hüquqlu üzvləri tərəfindən imzalanır. Protokolun komissiya üzvləri tərəfindən boş və ya tam doldurulmamış halda imzalanması qadağandır. Protokolla bütövlükdə və ya onun ayrı-ayrı hissələri ilə razılaşmayan məntəqə seçki komissiyasının üzvü protokolu imzalayaraq ona

---

**Səslər hesablanarkən səsvermə qutularından çıxmış müəyyənləşdirilmiş formada olmayan səsvermə bülletenləri sayılaraq aktlaşdırılır və həmin akt bu protokola əlavə edilir.*

özünün xüsusi rəyini əlavə edə bilər. Bu zaman buna dair protokolda müvafiq qeyd aparılır.

Aşağıda göstərilən seçki sənədləri Seçki Məcəlləsinin 106.7-ci maddəsinə uyğun olaraq səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının yekun protokoluna əlavə edilərək dərhal, lakin 24 saatdan gec olmayaraq məntəqə seçki komissiyasının sədrinin, müxtəlif siyasi partiyaları təmsil edən iki üzvünün və müşahidəçilərin müşayiəti ilə dairə seçki komissiyasına göndərilir:

1) məntəqə seçki komissiyası protokolunun 1-ci nüsxəsi;

2) səsvermə günü məntəqə seçki komissiyasına Seçki Məcəlləsinin tələblərinin pozulması ilə əlaqədar daxil olmuş şikayətlər (ərizələr) və bunlar üzrə məntəqə seçki komissiyasının qəbul etdiyi qərarlar;

3) məntəqə seçki komissiyası tərəfindən səsvermə bülletenlərinin alınması haqqında akt (İzaha 2 saylı əlavə);

4) istifadə edilməmiş səsvermə bülletenlərinin ləğv edilməsi haqqında akt (İzaha 3 saylı əlavə);

5) səsvermə vəsiqələrinin verilməsi və istifadə edilməmiş səsvermə vəsiqələrinin ləğv edilməsi haqqında akt (İzaha 4 saylı əlavə);

6) səsvermə bülletenlərinin kəsilmiş sol künclərinin sayı haqqında akt (İzaha 5 saylı əlavə);

7) səs verən vətəndaşların səhvi üzündən korlanmış səsvermə bülletenlərinin sayı haqqında akt (İzaha 6 saylı əlavə);

8) səsvermə otağından kənarda səs vermək üçün seçicilərin ərizələri ilə əlaqədar götürülmüş, istifadə edilmiş və istifadə edilmədən geri qaytarılmış səsvermə bülletenlərinin sayı haqqında akt (İzaha 7 saylı əlavə);

9) səsvermə bülletenləri;

10) məntəqə üzrə seçicilərin siyahısı (səsvermə vəsiqələri əlavə olunmaqla).

Adları çəkilən aktlar məntəqə seçki komissiyasının sədri və katibləri tərəfindən imzalanır.

Şikayətlərin (ərizələrin), məntəqə seçki komissiyası qərarlarının və yuxarıda adları çəkilən aktların təsdiq edilmiş surətləri protokolun 2-ci nüsxəsinə tikilir.

*İzaha 1 saylı əlavə*

**AZƏRBAYCAN RESPUBLİKASI**

______________

**R E F E R E N D U M**

**“___” ___________ 20__ il**

**____ saylı ______________________________ seçki (referendum) dairəsinin**
*(seçki dairəsinin adı)*

**______ saylı seçki (referendum) məntəqəsi üzrə səsvermənin nəticələri haqqında məntəqə seçki (referendum) komissiyasının***

**P R O T O K O L U**

______________________________________________________________________
*(məntəqə seçki komissiyasının olduğu yer – muxtar respublika, şəhər, rayon, şəhərdə rayon, qəsəbə, kənd)*

*Məntəqə seçki komissiyası səslərin hesablanması nəticəsində* ***müəyyən etmişdir:***

1. Məntəqə üzrə seçici siyahılarında olan seçicilərin ümumi sayı ***(1=1a+1b)***

   ____________________________________________ [ ]
   *(sözlə)* *(rəqəmlə)*

   a) seçici siyahısında olan seçicilərin sayı

   ____________________________________________ [ ]
   *(sözlə)* *(rəqəmlə)*

   b) əlavə seçici siyahısında olan seçicilərin sayı

   ____________________________________________ [ ]
   *(sözlə)* *(rəqəmlə)*

2. Qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin sayı

   ____________________________________________ [ ]
   *(sözlə)* *(rəqəmlə)*

3. məntəqə seçki komissiyasına dairə seçki komissiyasından verilmiş səsvermə bülletenlərinin sayı ***(3=4+5+6)***

   ____________________________________________ [ ]
   *(sözlə)* *(rəqəmlə)*

4. Səsvermə bülleteni alan seçicilərin sayı ***(4=4a+4b+4c)***

   ____________________________________________ [ ]
   *(sözlə)* *(rəqəmlə)*

*Protokoldakı “seçki komissiyaları” ifadəsi müvafiq olaraq “referendum komissiyaları” hesab edilir.

a) səsvermə otağından kənarda

______________________________ [ ]

(sözlə) (rəqəmlə)

b) səsvermə otağında - seçici siyahıları əsasında *[daimi (və ya müvəqqəti) və əlavə seçici siyahılarında olan imzaların sayı]*

______________________________ [ ]

(sözlə) (rəqəmlə)

c) səsvermə otağında – qeydiyyatdan çıxma vəsiqəsi ilə

______________________________ [ ]

(sözlə) (rəqəmlə)

5. İstifadə edilmədən ləğv olunmuş səsvermə bülletenlərinin sayı

______________________________ [ ]

(sözlə) (rəqəmlə)

6. Korlanmış səsvermə bülletenlərinin sayı

______________________________ [ ]

(sözlə) (rəqəmlə)

7. Səsvermə qutularında olan səsvermə bülletenlərinin sayı *(müəyyənləşdirilmiş formada olmayan səsvermə bülletenləri[*] istisna edilməklə)* ***(7=7a+7b); (7≤4)***

______________________________ [ ]

(sözlə) (rəqəmlə)

a) daşınan səsvermə qutusunda ***(7a≤4a)***

______________________________ [ ]

(sözlə) (rəqəmlə)

b) daşınmaz səsvermə qutusunda ***(7b≤4b+4c)***

______________________________ [ ]

(sözlə) (rəqəmlə)

---

[*] *Səslər hesablanarkən səsvermə qutularından çıxmış müəyyənləşdirilmiş formada olmayan səsvermə bülletenləri sayılaraq aktlaşdırılır və həmin akt bu protokola əlavə edilir.*

8. Ümumxalq səsverməsinə çıxarılmış referendum aktının layihəsi üzrə səslərin hesablanmasının nəticələri:

| Sıra sayı | Hissələrin adları | Səslərin sayı | | |
|---|---|---|---|---|
| | | | (sözlə) | (rəqəmlə) |
| 1 | | **lehinə** | | |
| | | **əleyhinə** | | |
| | | **etibarsız** | | |
| 2 | | **lehinə** | | |
| | | **əleyhinə** | | |
| | | **etibarsız** | | |
| 3 | | **lehinə** | | |
| | | **əleyhinə** | | |
| | | **etibarsız** | | |
| 4 | | **lehinə** | | |
| | | **əleyhinə** | | |
| | | **etibarsız** | | |
| 5 | | **lehinə** | | |
| | | **əleyhinə** | | |
| | | **etibarsız** | | |
| 6 | | **lehinə** | | |
| | | **əleyhinə** | | |
| | | **etibarsız** | | |
| 7 | | **lehinə** | | |
| | | **əleyhinə** | | |
| | | **etibarsız** | | |
| … | | **lehinə** | | |
| | | **əleyhinə** | | |
| | | **etibarsız** | | |

| | | |
|---|---|---|
| **Komissiyanın sədri** | ______________________ *(soyadı, adı, atasının adı)* | __________ *(ımza)* |
| **Komissiyanın katibi** | ______________________ *(soyadı, adı, atasının adı)* | __________ *(ımza)* |
| **Komissiyanın katibi** | ______________________ *(soyadı, adı, atasının adı)* | __________ *(ımza)* |
| **Komissiyanın üzvləri** | ______________________ *(soyadı, adı, atasının adı)* | __________ *(ımza)* |
| | ______________________ *(soyadı, adı, atasının adı)* | __________ *(ımza)* |
| | ______________________ *(soyadı, adı, atasının adı)* | __________ *(ımza)* |

**M.Y.**

Protokol 20__ il ___________ ___-da (də) saat ___-da(də) tərtib edilmişdir.

Komissiyanın həlledici səs hüquqlu üzvünün xüsusi rəyi haqqında qeyd:

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

| | |
|---|---|
| ______________________________ *(soyadı, adı, atasının adı)* | __________ *(imza)* |

**Q e y d :** p*rotokol məntəqə seçki komissiyasının həlledici səs hüquqlu üzvləri tərəfindən tərtib edilir və imzalanır. Məntəqə seçki komissiyasının protokolla bütövlükdə və ya onun ayrı-ayrı hissələri ilə razılaşmayan üzvü protokola xüsusi rəyini əlavə edə bilər və bu barədə protokolda müvafiq qeyd aparılır.*

*Protokolda düzəlişlər edilməsinə icazə verilmədiyinə görə, əvvəlcə protokolun qaralama nüsxəsini tərtib etmək məqsədəuyğundur.*

*Protokolun karandaşla doldurulmasına icazə verilmir.*

*İzaha 2 saylı əlavə*

**Referendum üzrə səsvermə bülletenlərinin dairə seçki (referendum) komissiyasından məntəqə seçki (referendum) komissiyasına verilməsi haqqında**

**A K T**

______________________________ *(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

"___" ________20__ il

Saat________

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 99-cu maddəsinin 6-cı bəndinə uyğun olaraq ______ saylı ____________________________ *(seçki (referendum) dairəsinin adı)* seçki (referendum) dairəsinin dairə seçki (referendum) komissiyasından həmin seçki (referendum) dairəsinin ____ saylı seçki (referendum) məntəqəsinin məntəqə seçki (referendum) komissiyasına seçicilər siyahısındakı seçicilərin ümumi sayına uyğun olaraq ______________________________ *(sözlə)* ________________ *(rəqəmlə)* ədəd referendum üzrə səsvermə bülleteni verilmişdir.

**Dairə seçki (referendum) komissiyasının sədri** ___________ *(imza)* ________________ *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının sədri** ___________ *(imza)* ________________ *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının katibi** ___________ *(imza)* ________________ *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının katibi** ___________ *(imza)* ________________ *(inisialı və soyadı)*

*İzaha 3 saylı əlavə*

**İstifadə edilməmiş referendum üzrə səsvermə bülletenlərinin ləğv edilməsi haqqında**

**A K T**

_____________________________ "___" ________20___ il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat________

Biz, aşağıda imza edənlər, həmin aktı ona görə tərtib etdik ki, referendum üzrə səsvermə günü ____ saylı ___________________________
*(seçki (referendum) dairəsinin adı)*
seçki (referendum) dairəsinin ____ saylı seçki (referendum) məntəqəsi üzrə ________________________________________ ____________________
*(sözlə)* *(rəqəmlə)*
ədəd istifadə edilməmiş referendum üzrə səsvermə bülleteni məntəqə seçki (referendum) komissiyasında qanunvericiliklə müəyyən olunmuş qaydada ləğvetmə xəttindən kəsilməklə ləğv edilmişdir.

**Məntəqə seçki (referendum) komissiyasının sədri** __________ ________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının katibi** __________ ________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının katibi** __________ ________________
*(imza)* *(inisialı və soyadı)*

*İzaha 4 saylı əlavə*

**Referendum zamanı səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin verilməsi və istifadə edilməmiş vəsiqələrin ləğv edilməsi haqqında**

**A K T**

___________________________ "___" ________20___ il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat ________

Biz, aşağıda imza edənlər, həmin aktı ona görə tərtib etdik ki, ____ saylı _________________________________seçki (referendum) dairəsinin dairə
*(seçki (referendum) dairəsinin adı)*
seçki (referendum) komissiyasından həmin dairənin _____ saylı seçki (referendum) məntəqəsinin məntəqə seçki (referendum) komissiyasına verilmiş __________________________________ ___________________
*(sözlə)* *(rəqəmlə)*
ədəd səsvermə vəsiqəsindən _____________________________________
*(sözlə)*
___________ ədədi seçicilərə təqdim edilmişdir.
*(rəqəmlə)*
İstifadə edilməmiş __________________ ________ ədəd səsvermə vəsiqəsi
*(sözlə)* *(rəqəmlə*
yarı kəsilməklə ləğv olunmuşdur.

**Məntəqə seçki (referendum) komissiyasının sədri** _________ ________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının katibi** _________ ________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının katibi** _________ ________________
*(imza)* *(inisialı və soyadı)*

*İzaha 5 saylı əlavə*

**Referendum üzrə səsvermə bülletenlərinin kəsilmiş sol künclərinin sayı haqqında**

**A K T**

_____________________________ "___" ___________20___ il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat_________________
*(dəqiqə də göstərilməlidir)*

Biz, aşağıda imza edənlər, həmin aktı ona görə tərtib etdik ki, ____ saylı ____________________ seçki (referendum) dairəsinin ____ saylı seçki (referendum) məntəqəsinin məntəqə seçki (referendum) komissiyası tərəfindən referendum üzrə səsvermə bülletenlərinin kəsilmiş sol küncləri sayılmış, onların sayının ________________________ _________________
*(sözlə)* *(rəqəmlə)*
ədəd olduğu müəyyən edilmiş və kəsilmiş künclər zərfə qoyulmuşdur.

**Məntəqə seçki (referendum) komissiyasının sədri** __________ _______________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının katibi** __________ _______________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının katibi** __________ _______________
*(imza)* *(inisialı və soyadı)*

*İzaha 6 saylı əlavə*

**Referendumda səsvermə günü səs verən vətəndaşların səhvi üzündən korlanmış referendum üzrə səsvermə bülletenlərinin sayı haqqında**

**A K T**

______________________________ "___" ________20___ il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat________

Biz, aşağıda imza edənlər, həmin aktı ona görə tərtib etdik ki, ____ saylı ______________________________ seçki (referendum) dairəsinin ____ saylı
*(seçki (referendum) dairəsinin adı)*
seçki (referendum) məntəqəsində səsvermə zamanı seçicilərin səhvi üzündən _________________________ ________________ ədəd referendum
*(sözlə)* *(rəqəmlə)*
üzrə səsvermə bülleteni korlanıb sıradan çıxmışdır.

**Məntəqə seçki (referendum) komissiyasının sədri** ___________ ________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının katibi** ___________ ________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının katibi** ___________ ________________
*(imza)* *(inisialı və soyadı)*

***Qeyd***: *bu akt seçicinin səhvi üzündən korlanmış hər bir səsvermə bülleteninə dair tərtib edilən aktların cəmi əsasında tərtib olunur.*

*İzaha 7 saylı əlavə*

**Referendum zamanı səsvermə otağından kənarda səs vermək üçün seçicilərin ərizələri ilə əlaqədar götürülmüş, istifadə edilmiş və istifadə edilmədən geri qaytarılmış referendum üzrə səsvermə bülletenlərinin sayı haqqında**

**A K T**

______________________________ "___" ________20___ il

*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat ________

Biz, aşağıda imza edənlər, həmin aktı ona görə tərtib etdik ki, _____ saylı ______________________________ seçki (referendum) dairəsinin ____ saylı

*(seçki (referendum) dairəsinin adı)*

seçki (referendum) məntəqəsi üzrə səsvermə günü səsvermə otağından kənarda səs vermək üçün _________________________ ____________ ədəd

*(sözlə)* *(rəqəmlə)*

referendum üzrə səsvermə bülleteni götürülmüş, həmin bülletenlərin ______ _________________________ ___________ ədədi istifadə edildikdən sonra,

*(sözlə)* *(rəqəmlə)*

_________________________ ___________ ədədi istifadə edilmədən geri

*(sözlə)* *(rəqəmlə)*

qaytarılmışdır.

**Məntəqə seçki (referendum) komissiyasının sədri** __________ ________________

*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının katibi** __________ ________________

*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki (referendum) komissiyasının katibi** __________ ________________

*(imza)* *(inisialı və soyadı)*